

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 1 (21.153)

*2 yanvar 2015-ci il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Naxçıvan Hərbi Hospitalına bayram sovqatı aparılmışdır





Dünya Azərbaycanlılarının Həmrəylik Günü bütövlük və suverenliyin vacib formulu olan xalq-ordu birliyinin də əsasını təşkil edir. Muxtar respublikada bayram günlərində idarə, müəssisə və təşkilatların kollektivləri, ictimaiyyətin nümayəndələri hərbi hissələrdə əsgər və zabitlərlə görüşür, onlara maddi və mənəvi dəstək olurlar. Ənənə halını alan bayram görüşləri Vətənimizin sadiq keşikçilərinin mənəvi-psixoloji hazırlığına köməklik göstərir, əsgərlərin mübarizlik əzmini daha da artırır.

Dekabrın 31-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Naxçıvan Hərbi Hospitalına gəlmişdir.

Ali Məclisin Sədri hərbi qulluqçuların səhhəti, müalicəsi, dərman təchizatı və qidalanması ilə maraqlanmışdır.

Məlumat verilmişdir ki, muxtar respublikada ordu quruculuğu sahəsində görülən işlər şəxsi heyətin xidmət və məişət şəraitini xeyli yaxşılaşdırmışdır. Əlahiddə Ümumqoşun Ordusunun hərbi hissələrində şəxsi heyət mütəmadi olaraq tibbi müayinədən keçirilir, xəstəliklərin qarşısı vaxtında alınır. Həmçinin birləşmə və bölmələrdə yerli şəraitə uyğun rejim qaydalarının tətbiq olunması əsgərlər arasında xəstəliklərin azalmasına səbəb olmuşdur. Hazırda Hərbi Hospitalda lazımi dərman vasitələri və tibbi ləvazimatlarla təminat müayinə və müalicənin effektiv təşkilinə imkan verir.



Ali Məclisin Sədri hospitalın ayrı-ayrı bölmələrində müalicə olunan hərbi qulluqçuların bayramlarını təbrik etmiş, onlara tezliklə sağalıb xidmət yerlərinə qayıtmalarını arzulamışdır.

Hospitalda müalicə alan əsgərlərə və tibb heyətinə bayram hədiyyələri paylanmış, gətirilmiş ərzaq məhsulları mətbəxə təhvil verilmişdir.

Sonra Ali Məclisin Sədri Hərbi Hospitalın səyyar tibbi yardım və rentgen flüoroqrafiya avtomobillərinə baxmışdır.

Bildirilmişdir ki, müasir rentgen, USM və kardioqrafiya avadanlıqları ilə təmin olunmuş səyyar flüoroqrafiya maşınları yüksək texniki göstəricilərə malikdir. Bu da birləşmə və bölmələrdə şəxsi heyətin vaxtlı-vaxtında tibbi müayinədən keçirilməsinə imkan verəcəkdir.

Ali Məclisin Sədri Naxçıvan Hərbi Hospitalının həkimləri tərəfindən mütəmadi olaraq Əlahiddə Ümumqoşun Ordusunun birləşmə və bölmələrində müayinələrin aparılması, gigiyenik qaydalara əməl olunması, infeksion xəstəliklərin qarşısının vaxtında alınması və profilaktik tədbirlərin gücləndirilməsi barədə tapşırıqlar vermişdir.

## Naxçıvan Muxtar Respublikası Psixi və Ağciyər Xəstəlikləri dispanserlərinə və Onkoloji Mərkəzə bayram sovqatı verilmişdir





Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev bu il dekabrın 24-də dünya azərbaycanlılarına ünvanladığı müraciətində demişdir: ***"Dünyada yaşayan soydaşlarımızın Vətənə və Azərbaycançılıq məfkurəsinə sədaqətini, xalqımızın öz keçmişinə və milli-mənəvi dəyərlərinə ehtiramını əks etdirən bu bayram tarixi yaddaşımızın mühüm tərkib hissəsinə çevrilmişdir. Ümummilli lider Heydər Əliyevin misilsiz xidmətləri sayəsində milli birlik və həmrəylik ideyaları daha dolğun məzmun kəsb edərək real fəaliyyət sahəsi kimi dövlət siyasəti səviyyəsinə yüksəlmişdir".***

Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı hər il Naxçıvan Muxtar Respublikasında da özünəməxsus şəkildə qeyd olunur. Ümummilli liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi həmrəylik və birlik ideyaları real işdə öz əksini tapır, bu günün mahiyyətinə uyğun olaraq, xüsusi diqqətə, qayğıya və şəfqətə ehtiyacı olan insanlara baş çəkilir, onlara bayram sovqatları aparılır.

Dekabrın 31-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Psixi Xəstəliklər Dispanserinə gəlmiş, səhiyyə ocağındakı xəstələri və tibb işçilərini Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə təbrik etmiş, xəstələrin səhhəti, onların müalicəsi və məişət şəraiti ilə maraqlanmışdır.

Qeyd olunmuşdur ki, muxtar respublikada həyata keçirilən səhiyyə islahatları insanlara göstərilən tibbi xidmətin səviyyəsini xeyli yüksəltmişdir. Bu sahəyə ayrılan diqqətin nəticəsidir ki, Psixi Xəstəliklər Dispanserində də xəstələr üçün nümunəvi müalicə və məişət şəraiti yaradılmış, səhiyyə ocağı lazımi dərman preparatları və tibbi avadanlıqlarla təchiz olunmuşdur.

Psixi və Ağciyər Xəstəlikləri dispanserlərində və Onkoloji Mərkəzdə müayinə və müalicə zamanı müasir metodların tətbiqinin vacibliyini vurğulayan Ali Məclisin Sədri muxtar respublikada bu kateqoriyadan olan xəstələrin bundan sonra da hərtərəfli qayğı ilə əhatə olunacağını bildirmiş, psixi, ağciyər və onkoloji xəstəliklərin vaxtında aşkara çıxarılması və qarşısının alınması, bu məqsədlə yerlərdə yoxlamaların aparılması və səhiyyə maarifi işinin təşkili barədə tapşırıqlar vermişdir.

Gətirilmiş hədiyyələr Psixi və Ağciyər Xəstəlikləri dispanserlərində və Onkoloji Mərkəzdə müalicə alan xəstələrə və burada çalışan tibb işçilərinə paylanmış, müxtəlif adda ərzaq məhsulları anbarlara təhvil verilmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# Naxçıvan şəhərində Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı qeyd olunmuşdur

Tarixə uğurlu il kimi daxil olan 2014-cü il Naxçıvan Muxtar Respublikası üçün də əlamətdar hadisələrlə yadda qaldı. Yola saldığımız ildə Naxçıvan Muxtar Respublikasının 90 illiyi qeyd olundu. Əvvəlki illərdə olduğu kimi, "Muxtariyyət ili"ndə də iqtisadi və sosial həyatın bütün sahələrində tərəqqiyə nail olundu, əhalinin rifahının yaxşılaşdırılması istiqamətində zəruri tədbirlər həyata keçirildi. Xüsusilə abadlıq-quruculuq işlərinin əhatə dairəsinin genişlənməsi qədim Naxçıvanın müasir görkəmini daha da füsunkar etmişdir. Başa vurduğumuz ilin uğurlu sosial-iqtisadi yekunları muxtar respublika əhalisini yeni ili daha yüksək bayram əhval-ruhiyyəsi ilə qarşılamağa ruhlandırır.

Muxtar respublikada Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı ruh yüksəkliyi, möhtəşəm təntənə və bayram gəzintisi şəraitində qeyd edilmişdir. Naxçıvan şəhərində bir neçə gün əvvəldən bayramların gəlişi münasibətilə yolkalar bəzədilmiş, şəhər bayram libasına bürünmüşdü.







Dekabrın 31-də axşam saatlarında minlərlə sakin və şəhərimizin qonaqları Heydər Əliyev prospektində – şəhərin mərkəzi meydanında toplaşmış, həmrəylik bayramını birlikdə qeyd etmişlər. Meydanda konsert proqramı təşkil olunmuş, Vətənimizi, həmrəyliyi, milli dəyərləri, yeni ili tərənnüm edən mahnılar səslənmiş, gənclər rəqs edərək xoş dəqiqələr keçirmişlər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov ailə üzvləri ilə birlikdə bayram şənliyinə gəlmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və yeni il münasibətilə Azərbaycan xalqına televiziya vasitəsilə təbriki mərkəzi meydanda və digər yerlərdə quraşdırılan monitorlar vasitəsilə canlı yayımlanmışdır. Azərbaycan xalqına təbriklərini çatdıran ölkə Prezidenti demişdir: ***"Bu gün Dünya Azərbaycanlılarının Həmrəyliyi Günüdür. Əminəm, dünyada yaşayan bütün azərbaycanlılar haqlı olaraq fəxr edirlər ki, bu gün qüdrətli, müstəqil Azərbaycan dövləti vardır. Müstəqillik bizim üçün ən böyük xoşbəxtlikdir, ən böyük sərvətdir. Biz 23 ildir ki, müstəqilik və müstəqil siyasət aparırıq. Milli maraqlar, milli dəyərlər üzərində qurulmuş bu müstəqil siyasət bugünkü Azərbaycan reallıqlarını təmin edir. Bu gün Azərbaycan dinamik, sürətlə inkişaf edən ölkədir. Azərbaycan demokratiya, azadlıq, müstəqillik, tərəqqi, inkişaf yolu ilə uğurla gedən ölkədir. Əminəm, dünyada yaşayan bütün azərbaycanlılar fəxr edirlər ki, bu gün dünya xəritəsində Azərbaycan kimi dövlət var, öz sözünü deyir, deyəcək və bizim uğurlu inkişafımız bundan sonra da təmin ediləcəkdir".***

Gecə saatlarında şənliyə toplaşan sakinlər möhtəşəm bayram atəşfəşanlığını seyr etmiş, yurdumuza ilk qədəmlərini qoyan yeni ili xoş arzular və böyük təntənə ilə qarşılamışlar.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# Naxçıvanda yeni ilin gəlişi münasibətilə bayram şənlikləri keçirilmişdir





Müstəqil Azərbaycanın dinamik inkişafı və ölkəmizdəki mövcud sabitlik qarşıladığımız 2015-ci ildə də uğurlu nailiyyətlərin qazanılmasına əminlik yaradır. Ümummilli liderimiz Heydər Əliyevin siyasi xəttinin uğurla davam etdirilməsi Azərbaycanı və onun Naxçıvan Muxtar Respublikasını daha xoş günlərə qovuşduracaqdır. Bu gün muxtar respublika sakinlərinin birlik və həmrəylik duyğularının, yeni il sevinclərinin qayəsində də ulu öndərin siyasi xəttinə sonsuz inam və sədaqət dayanır. Qurub-yaratmaq əzmi ilə yaşayan muxtar respublika əhalisi yeni ili bayram sevinci ilə qarşılayır.

Yanvarın 1-də ölkəmizin hər yerində olduğu kimi, muxtar respublikamızın şəhər və rayon mərkəzlərində də bayram şənliyi keçirilmişdir.

Naxçıvan şəhər sakinləri Dünya Azərbaycanlılarının Həmrəylik Gününün və yeni ilin təntənəli qeyd olunması üçün ümummilli liderimiz Heydər Əliyevin adını daşıyan prospektdəki mərkəzi meydanda təşkil olunan bayram şənliyinə toplaşmışdı. Yeni ilin gəlişini tərənnüm edən mahnıların səslənməsi, Naxçıvan Dövlət Kukla Teatrının aktyorlarının ifasında səhnəciklərin göstərilməsi şənliyə gələnlərdə xoş ovqat yaratmış, Şaxta babanın, Qar qızın yolka ətrafında çıxışları, paylanılan hədiyyələr balacalara əsl bayram sevinci bəxş etmişdir.

Mərkəzi meydanın bir hissəsində 40-dan artıq istehsal və xidmət müəssisəsi tərəfindən şəhər sakinlərinə ictimai iaşə xidməti göstərilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bayram şənliyinin keçirildiyi mərkəzi meydana gəlmiş, şəhər sakinlərinin Yeni il bayramını təbrik etmişdir.

Ali Məclisin Sədri ictimai iaşə xidmətinin təşkili ilə maraqlanmış, uşaqlarla söhbət etmiş və onlara hədiyyələr vermişdir.

Yeni il şənliyi bayram günlərində davam etdiriləcəkdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# AMEA Naxçıvan Bölməsində Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə tədbir keçirilib

*Tədbiri giriş sözü ilə açan AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Gününün tarixindən və ümummilli lider Heydər Əliyevin dünya azərbaycanlılarının vahid milli ideologiya ətrafında birləşdirilməsi istiqamətində xidmətlərindən danışmışdır.*

Bildirilmişdir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 1991-ci il 16 dekabr tarixli sessiyasında dahi rəhbərin təşəbbüsü ilə dekabrın 31-nin Dünya Azərbaycan Türklərinin Həmrəylik və Birlik Günü kimi qeyd olunması barədə qərar qəbul edilmişdir. Həmin tarixi qərara imza atan ümummilli lider Heydər Əliyevin bu təşəbbüsü milli diasporun formalaşmasına zəmin yaratmışdır. Müstəqillik illərində dünya azərbaycanlılarının xalqımızın milli-mənəvi dəyərlərinə hörmət, Azərbaycan xalqına mənsubluq, Vətənə bağlılıq, Azərbaycançılıq duyğuları əsaslanan həmrəylik ideyası ulu öndər Heydər Əliyevin sayəsində ictimai təşəbbüslərdən əməli işə, çoxşaxəli fəaliyyət planına və dövlət siyasətinin mühüm istiqamətlərindən birinə çevrilmişdir. Nəticədə, xaricdəki həmvətənlərimiz arasında Azərbaycançılıq ideyaları, milli-mənəvi dəyərlərimiz getdikcə daha dərin kök salmış, onlar məskunlaşdıqları ölkələrin ictimai-siyasi, mədəni və işgüzar həyatında mühüm mövqelərə sahib olmaqla yanaşı, həm də Azərbaycanın dünyaya təqdim olunmasına, maddi və mənəvi irsimizin təbliğinə, ölkəmiz əleyhinə yönəlmiş ideoloji təxribatların qarşısının alınmasına öz töhfələrini verməyə başlamışlar.

AMEA Naxçıvan Bölməsinin elmi katibi Rəşad Zülfüqarov ölkə başçısının müstəqil Azərbaycan Respublikasının qorunması və inkişaf etdirilməsi, dünya birliyində mövqeyinin möhkəmləndirilməsi işində atdığı uğurlu addımlardan bəhs etmişdir.

AMEA Naxçıvan Bölməsinin böyük elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Musa Quliyev "Dünya azərbaycanlılarının həmrəylik bayramı" adlı məruzəsində azərbaycanlıların yaşadıqları ölkələrdə təşkilatlanması, birlik və mütəşəkkilliyinin gücləndirilməsi, Vətənlə əlaqələrinin möhkəmləndirilməsi istiqamətində həyata keçirilən davamlı və məqsədyönlü tədbirlərdən danışmışdır.

**✍ Nərgiz İSMAYILOVA**

# Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı muxtar respublikanın rayonlarında yüksək əhval-ruhiyyə ilə qeyd olunub

## Şərur rayonu

***Xalqımız 23 ildir ki, 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Gününü böyük coşqu ilə qeyd edir. Həmrəylik Gününün yeni illə eyni günə düşməsi isə sevinc hislərimizi daha da artırır. Hər başa çatan il muxtar respublikamıza böyük uğurlar, insanlara xoş gün-güzəran bəxş etdiyi kimi, bayramlarımız da ilbəil daha böyük təntənə ilə qeyd olunur, zəhmətkeş, tərəqqipərvər, qədirbilən xalqımız bu günləri xoş əhval-ruhiyyə ilə qarşılayır, gələcəyə daha inamla baxır.***



Blokada şəraitində olmasına baxmayaraq, muxtar respublikamızda bütün sahələrdə əldə edilən uğurlar əhalinin rifah halının yüksəlməsinə səbəb olub, regionda həyata keçirilən tədbirlərdən hər bir ailə, hər bir vətəndaş bəhrələnib. Elə buna görədir ki, illər öncə yeni ili qaranlıqda, kasad süfrə ilə qarşılayan naxçıvanlılar bu gün bayramları böyük ruh yüksəkliyi ilə qarşılayırlar. Builki bayramların böyük şövqlə keçirilməsində “Muxtariyyət ili”ndə qazandığımız nailiyyətlər də böyük rol oynayıb.

Muxtar respublikamızın ən böyük bölgələrindən biri sayılan Şərur rayonunda da “Muxtariyyət ili”nin çoxsaylı bəhrələri var. 2014-cü ildə rayonda tikinti-quruculuq işləri daha böyük vüsət alıb. Müxtəliftəyinatlı obyektlərin inşasının həcmi bir qədər də genişləndirilib. Yeni məktəb binaları, mədəniyyət və səhiyyə obyektləri, kənd və xidmət mərkəzləri istifadəyə verilib, müasir standartlara cavab verən yollar salınıb, körpülər tikilib. Bütün bunlar rayonun simasına əlavə çalarlar gətirməklə insanların qurub-yaratmaq əzmini bir qədər də yüksəldib.

Dünən Şərur rayonunun sakinləri Dünya Azərbaycanlılarının Həmrəylik Gününü və yeni ili belə hislərlə qeyd ediblər. Onların rəngarəng işıqlarla bəzədilmiş rayon mərkəzində cəmlənməsi yaranan xoş abhava ilə müşayiət olunub. Şaxta baba və Qar qızın, yaradıcı kollektivlərin çıxışları alqışlarla qarşılanıb. Bayram tədbirində ən çox sevinən isə uşaqlar olublar. Onlar küknarlar ətrafında rəqs edib, mahnılar oxuyub, şeir söyləyiblər.

Rayon Mədəniyyət Evinin “Arpaçay” instrumental, “Şərur qönçələri” və “Şərur” Xalq Yallı ansambllarının ifalarında səslənən musiqi nömrələri və rəqslər, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi Kimya Babayevanın, həmçinin Cabbar Əliyevin, Fərman Allahverdiyevin, Cabbar Hüseynovun ifa etdikləri mahnılar tədbir iştirakçıları tərəfindən rəğbətlə qarşılanıb.

## Ordubad rayonu



Tarixçi alim Teymur Bünyadov “Gözəlliklər məskəni” adlı məqaləsində Ordubad haqqında yazır: “Ordubadda gözəlliklərdən doymursan, öz-özünə deyirsən: Ordubadı görməyən nə Vətən görüb, nə vətənpərvərlik bilib, nə gözəllik görüb, nə də gözəllik duyub”. Bu gün hərtərəfli dövlət qayğısı əhatəsində olan Ordubad başdan-başa gözəllik timsalındadır.

Bir neçə statistik rəqəmə baxsaq, həmin gözəlliyi təsəvvürümüzdə canlandıra bilərik. Böyük inkişaf və yeni tərəqqi müstəvisində olan Ordubadda son 19 il ərzində həyatın bütün sahələrində güclü yeniləşmə diqqəti çəkir. Bu dövrdə rayonda 24 yeni məktəb binası inşa olunub, 13 kənd mərkəzi istifadəyə verilib. Kənd mərkəzlərinin yerləşdikləri yaşayış məntəqələrində fəaliyyət göstərən klub, mədəniyyət evi, kitabxana, ATS, rabitə evi, polis və baytarlıq məntəqələri üçün müasir iş şəraiti yaradılıb.

Ordubadlıların sağlamlığı keşiyində dayanmaq məqsədilə 21 səhiyyə ocağı yeni binada fəaliyyətini davam etdirir. Ötən dövrdə rayondaxili yollarda cari və əsaslı təmir işləri aparılıb, hazırda bu tədbirlər davam etdirilir.

“Muxtariyyət ili” bu gözəl və füsunkar bölgəyə daha böyük izlərini yazıb. Aşağı Əylis kəndində məktəb və kənd mərkəzi istifadəyə verilib, Yuxarı Əylis kəndində məscid binası tikilib. Naxçıvan Muxtar Respublikası Milli Təhlükəsizlik Nazirliyinin Ordubad Rayon Şöbəsi ötən ilin aprel ayından fəaliyyətini yeni binada davam etdirməyə başlayıb. Dübəndi çayı üzərində salınmış şəhər parkında bənd və şəlalə istifadəyə verilib. Akademik Yusif Məmmədəliyevin və yazıçı Məmməd Səid Ordubadinin ev-muzeyləri, Buxxana tarix-memarlıq abidəsi, Ordubad şəhər M.Füzuli adına tam orta internat məktəbinin binası təmir olunub. Hazırda şəhərdəki 3 nömrəli tam orta məktəb və aviakassa üçün binalar, Məhəmməd Tağı Sidqinin ev-muzeyi inşa olunur.

Ordubadlılar builki 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Gününü və Yeni il bayramını belə uğurlu nailiyyətlərlə qeyd ediblər. Rayonun mədəniyyət müəssisələrinin və musiqi məktəblərinin kollektivlərinin Ordubad şəhərindəki tədbirlər meydanında rayon ictimaiyyətinə təqdim etdikləri musiqi nömrələri alqışlarla qarşılanıb.

Tədbirdə ulu öndər Heydər Əliyevə, dövlətçiliyimizə, müstəqilliyimizə, doğma Naxçıvanımıza həsr olunmuş şeirlər səsləndirilib.

## Kəngərli rayonu



Muxtar respublikamızın davamlı sosial-iqtisadi inkişafından Kəngərli rayonuna da böyük pay düşüb. Ötən il 10 yaşını qeyd edən rayonda aparılan abadlıq-quruculuq işləri yola saldığımız “Muxtariyyət ili”ndə sürətlə davam etdirilib. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iştirakı ilə Kəngərli Rayon Mərkəzi Xəstəxanasının açılışı isə tarixi hadisə kimi yaddaşlarda qalıb.

2014-cü il oktyabrın 20-də rayon mərkəzində Əlahiddə Ümumqoşun Ordusu üçün yeni Təlim-Tədris Mərkəzi istifadəyə verildi.

2014-cü il dekabrın 29-da – Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı ərəfəsində rayonun Qarabağlar kəndində 1 nömrəli tam orta məktəbin binası və xidmət mərkəzi istifadəyə verildi.

Böyük quruculuq-abadlıq işlərinin aparıldığı Kəngərli rayonunda 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Günü və yeni il münasibətilə silsilə bayram tədbirləri, şənliklər keçirildi. Belə ki, dekabrın 31-də Qıvraq qəsəbəsindəki hərbi hissədə möhtəşəm bayram şənliyi oldu. Kəngərli Rayon Mədəniyyət və Turizm Şöbəsinin “Kəngər” instrumental ansambl hərbçilərimiz qarşısında bayram proqramı ilə çıxış etdi. Vətənimizin tərənnümünə həsr olunan şeirlər böyük coşqu yaratdı. Həmin gün 2 sərhəd zastavasında da bayram şənlikləri keçirildi.

Yanvarın 1-də rayon mərkəzindəki Heydər Əliyev Mədəniyyət və İstirahət Parkında yeni il şənliyi keçirildi. “Kəngər” instrumental ansamblının solistlərinin və Naxçıvan şəhərindən dəvət olunmuş müğənnilərin ifasında səsləndirilən mahnılar çoxsaylı tamaşaçılar tərəfindən alqışlarla qarşılandı. Yeni ilin personajları olan Şaxta baba və Qar qızın gəlişi uşaqlara şən əhval bəxş etdi, onları sevindirdi.

## Şahbuz rayonu



***Son illərin tərəqqisi insanda belə bir fikir yaradır ki, Naxçıvan diyarında inkişaf hədlərə görə yox, daim yenilənən hədəflərə doğru istiqamətlənir. Bunu Şahbuz rayonunun timsalında da görmək olar.***

Təbii gözəllik olan yerdə insanların işləmək əzmi də yüksək olur. Elə bunun nəticəsidir ki, son illər ərzində bu bölgədə xeyli sayda quruculuq tədbirləri həyata keçirilib. Məlumat üçün bildirək ki, Şahbuz rayonunda 1 şəhər, 1 qəsəbə, 22 kənd var. İndiyədək rayonun 20-dək yaşayış məntəqəsində kompleks quruculuq işləri aparılıb. Sevindirici haldır ki, ən ucqar dağ kəndləri olan Şada, Kükü, Kolanı, Biçənək, Keçili və adını sadalamadığımız neçə belə kəndlərə də bu quruculuq tədbirlərindən pay düşüb. Bütün bunlar barədə 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə Şahbuz şəhərində keçirilən tədbirdə geniş danışıldı. Rayon ictimaiyyətinə bölgənin musiqi kollektivlərinin ifasında bir-birindən maraqlı musiqi nömrələri təqdim olundu.

## Babək rayonu



Artıq tərəqqi və uğurlarla dolu olan “Muxtariyyət ili” – 2014-cü il tarixə qovuşdu. Muxtar respublika sakinləri yeni ili xoş arzular, yüksək əhval-ruhiyyə ilə qarşıladılar. Yanvarın 1-də muxtar respublikamızın hər yerində olduğu kimi, Babək qəsəbə mərkəzində, Nehrəm və Cəhri kəndlərində bayram şənlikləri keçirilib. Şənliklərdə Vətənimizi, yeni ilin gəlişini tərənnüm edən mahnıların səslənməsi, yolka ətrafında Şaxta babanın, Qar qızın çıxışları, rayon Mədəniyyət Evinin musiqi kollektivlərinin çıxışları şənliyə gələnlərdə xoş ovqat yaradıb, paylanan hədiyyələr balacalara əsl bayram sevinci bəxş edib. Bayram tədbirlərində ən çox sevinən isə uşaqlar idi. Onları ağ saqqallı Şaxta baba hədiyyəsiz qoymadı, çiynindəki torbasını yerə qoyub uşaqları mükafatlandırdı.

Ümummilli liderimiz Heydər Əliyev tərəfindən yaradılan Babək rayonu bu gün inkişafın yeni mərhələsinə qədəm qoyub. Son illər yeni inzibati binaların və sosial obyektlərin istifadəyə verilməsi rayon mərkəzinin simasını tamamilə dəyişib. Artıq abad yolları, təmiz və işıqlı küçələri, yaraşıqlı binaları ilə seçilən Babək qəsəbəsi müasir şəhər görkəmi alıb. “Muxtariyyət ili” – 2014-cü il rayon üçün daha əlamətdar olub. Belə ki, ötən ilin ilk ayında Babək qəsəbəsində avtomobil yolu, Babək Rayon Mərkəzi Xəstəxanasının və Tarix-Diyarşünaslıq Muzeyinin binaları istifadəyə verilib. Qeyd edək ki, ilboyu rayonun müxtəlif yaşayış məntəqələrində quruculuq işləri aparılıb, avtomobil yolları yenidən qurulub, rayon mərkəzində uşaq bağçası, Qahab, Güznüt və Naxışnərgiz kəndlərində müxtəlif sosialyönümlü obyektlər istifadəyə verilib.

Rayon sakinləri ilə söhbətlərimizdə ildən-ilə qüdrətlənən Azərbaycanın vətəndaşı olmalarından haqlı qürur hissi duyduqlarının şahidi olduq. El ağsaqqalları, müəllimlər, həkimlər, evdar qadınlar, xülasə, cəmiyyətin bütün təbəqələrindən olan insanlar bayramların belə yüksək səviyyədə qeyd olunmasına görə dövlətimizə öz minnətdarlıqlarını bildirib, arzularını dilə gətirdilər: “Qoy bu əmin-amanlıq, rahat həyat Azərbaycan, eləcə də Naxçıvan üçün əbədi olsun”, – dedilər.

## Culfa rayonu



Artıq XXI əsrin on dördüncü ili də tarixə qovuşdu. Əvvəlki illər kimi, 2014-cü il də Naxçıvanın intibah tarixinə böyük hərflərlə yazıldı. Ötən il muxtar respublikamız üçün daha məsuliyyətli və ahəngdar oldu. Naxçıvan Muxtar Respublikasının yaradılmasının 90 illik yubileyi ilə əlaqədar 2014-cü il muxtar respublikada “Muxtariyyət ili” elan edilmişdi.

Qeyd olunmalıdır ki, müasir dünya ölkələrinin əksəriyyəti üçün bu ilin mürəkkəb, eyni zamanda gərgin ictimai-siyasi vəziyyətdə keçdiyini nəzərə alsaq, ölkəmiz üçün perspektivli illər sırasına daxil olan 2014-cü il, ümumilikdə, Azərbaycan və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası üçün, necə deyərlər, düşərli il oldu. “Muxtariyyət ili”ndə əldə edilən uğurlardan muxtar respublikanın bütün rayonlarına pay düşdü. Belə ki, Culfa rayonu da iqtisadi və sosial sahələrdə əldə olunan nailiyyətlərlə, əhalinin rifahının yüksəldilməsi istiqamətində görülən işlərlə növbəti ili bayram əhval-ruhiyyəsi ilə qarşıladı.

Culfa şəhərində keçirilən Yeni il bayramı şənliyində Şaxta babanın, Qar qızın, nağıl qəhrəmanlarının, rayon Mədəniyyət Evinin özfəaliyyət və Culfa şəhərindəki Uşaq musiqi məktəbi kollektivlərinin iştirakı ilə tamaşa və konsert proqramı təqdim olunub. Nağıl qəhrəmanları ilə görüşən və Şaxta babadan yeni il hədiyyələri alan uşaqlar əsl bayram sevinci yaşayıblar.

Bayram şənliyinin aparıcıları culfalıları əlamətdar bayramlar münasibətilə təbrik edərək 2014-cü ilin Culfa rayonu üçün uğurlu olduğunu vurğulayıb, sakinlərə yeni ildə ictimai-siyasi, iqtisadi, sosial və mədəni həyatda uğurlar arzulayıblar.

## Sədərək rayonu



Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə Sədərək rayonunda keçirilən tədbirdə sərhəd bölgəsinin sakinləri yüksək fəallıqla iştirak edirdilər. Onların son illər bu rayonda həyata keçirilən tədbirlər hesabına Sədərəyin müasir rayona çevrilməsindən qürur hissi duyduqlarını hiss etmək çətin deyildi. Mövcud problemlərin həll olunması istiqamətində son illərdə görülən işlərə sədərəklilər də töhfələrini verir, öz doğma yurd yerlərinin gözəl məkana çevrilməsini vətəndaşlıq borcu hesab edirlər.

Bayram tədbirində rayonun musiqi kollektivləri sədərəklilərə xoş ovqat bəxş etdilər.

**Xəbərlər şöbəsi**



# Uğurlu illərin davamı

***Yeni intibah dövrünü yaşayan qədim Naxçıvanın ən yeni tarixində uğurlarla dolu növbəti – 2014-cü il də arxada qaldı. Yeni – 2015-ci ilə qədəm qoyduğumuz bu günlərdə Azərbaycan vətəndaşları, bütün dünyadakı həmvətənlərimiz növbəti ildə daha sıx birləşib daha böyük uğurlar qazanmaq diləkləri ilə bir-birlərini təbrik edir, sevgi ismarıcları ilə dostlarını, yaxınlarını sevindirirlər.***

Ölkəmizin hər bir guşəsində olduğu kimi, Naxçıvanda da bu bayram əvvəlkilərdən daha fərqli hiss olunur: Azərbaycan ötən ildə daha da qüdrətləndi, onun vətəndaşları daha da dərin rifaha qovuşdular. Təqvim pilləsində bir addım da qalxıb “Ötən ildə nə qazandıq?” deyə, keçmiş günləri vərəqləsək, çox yaddaqalan günlər yaşadığımızı görərik. Şübhəsiz, zaman çarxının daha sürətlə döndüyü, işgüzar günlərin sanki sezilmədən bir-birini əvəz etdiyi bir dövrdə yekun nəticəyə gəlmək çox erkən olsa da, bir il ərzində görülən işlərə yekun vurmaqla növbəti ilə daha inamla başlamaq olar. Qarşıda hələ çox işlər var!

Ötən il Naxçıvan Muxtar Respublikası üçün nə ilə əlamətdar oldu? Bir vaxtlar inanılası çox çətin olan layihələrin reallaşdırılması üçün yolun çalışmaqdan keçdiyini artıq yaxşı mənimsəmiş naxçıvanlılar 2014-cü ildə də muxtar respublikanın daha da çiçəklənməsi üçün qolları çırmayıb daha qətiyyətlə işə girişdilər. Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvanın 90 illik muxtariyyət yubileyi ömrünü bu torpağın tərəqqisinə həsr etmiş bütün naxçıvanlıların bayramı oldu. Naxçıvanlılar bu bayramı geniş tədbirlərlə qeyd etdilər. Ötən ilin aprel ayında ölkə başçısının Naxçıvan Muxtar Respublikasına növbəti səfəri və 90 illik yubiley tədbirində iştirakı “Muxtariyyət ili”nin ən əlamətdar hadisəsi kimi yadda qaldı. Ölkə Prezidenti səfəri çərçivəsində Naxçıvanda çox sayda obyektlərin açılışında iştirak edərək bu böyük bayramın sevincini hamı ilə bölüşdü.

2014-cü il boyunca Naxçıvanın muxtariyyət bayramı münasibətilə müxtəlif kürsülərdən təbriklər eşidildi. Dünyanın siyasi liderləri, elm və mədəniyyət xadimləri, nüfuzlu jurnalistlər Naxçıvana səyahət edib Naxçıvan haqqında qiymətli fikirlər söylədilər. Təkcə IV Bakı Beynəlxalq Humanitar Forumunun iştirakçısı, Amerika Birləşmiş Ştatlarından olan tədqiqatçı-jurnalist Peter Tasenin Naxçıvan haqqında yazdığı müxtəlif məqalələr onu deməyə əsas verir ki, Naxçıvan Muxtar Respublikası artıq, sadəcə, bir subyekt kimi deyil, eyni zamanda Şərq-Qərb astanasında özünü mühüm cazibə mərkəzi kimi tanıtmağa başlayan, iqtisadi inkişafda, elm və mədəniyyət sahələrindəki nailiyyətlərlə getdikcə diqqətləri üzərinə çəkən məkan halına gəlməkdədir. Bu gün dəniz, quru, dəmir yollarına çıxışı olan bir sıra dünya ölkələri qlobal iqtisadi böhrandan zərbə aldıqları bir dövrdə blokadaya alınmış Naxçıvan Muxtar Respublikasının iqtisadi inkişaf modeli iqtisadçı və siyasi analitikləri yenidən düşünməyə vadar etməkdədir. Beləliklə, özünün tarixi muxtariyyət zəfərini yaşayan Naxçıvan Muxtar Respublikasının ölkəmizin beynəlxalq imicinin yüksəlməsində, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında əhəmiyyətli rolu bir daha ortaya çıxaraq “gücün ədalət deyil, ədalətin güc olduğuna” inananlar üçün ən tutarlı arqumentə çevrildi. Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi Naxçıvanın muxtariyyət statusunda mövcud inkişafı çoxlu sayda beynəlxalq səviyyəli elmi tədbirlərin gündəliyinə gətirilərək “Naxçıvan” adı aparılan araşdırmaların ən çox işlənən açar sözü səviyyəsinə çatdı… Və beləcə, uzun illər boyu çəkilmiş zəhmət hədər getmədi. Soyuq, qaranlıq gecələrdə üşüyən Naxçıvan çıraqban kimi yanan gözəl libasına büründü. Bütün bunlar isə regionda həyata keçirilən irimiqyaslı layihələr – istehsal və sosial infrastrukturunun tamamilə yenilənməsi, insan inkişafı indeksinə yönəlmiş fəaliyyət hesabına baş verdi. İlbəil qazanılan iqtisadi güc bütün gözəl ideyalara da ruh verib regionu 5,5 min kvadratkilometrlik bir quruculuq meydanına çevirdi.

“Muxtariyyət ili”ndə – 2014-cü ildə sosial-iqtisadi həyatda qazanılan uğurlar muxtar respublika əhalisinin həyat şəraitində, yaşayış keyfiyyətində daha yaxından hiss olunmağa başladı. Muxtar respublikada istehsal olunan 2 milyard 388 milyon manatdan çox Ümumi Daxili Məhsuldan onun 439 min nəfərdən çox əhalisinin hər birinə düşən həcmi orta hesabla 5459 manata çatdı. Bu rəqəm bu gün ABŞ dolları ilə ifadə olunduqda bəzi Avropa İttifaqı üzvü ölkələri ilə də müqayisə oluna bilər. Sənayedə, kənd təsərrüfatında yaradılmış istehsal imkanları, xidmət sektorunda davamlı olaraq yeni keyfiyyət tələblərinin tətbiq olunması əhalinin həyat səviyyəsinə çox ciddi təsir göstərməyə başladı. “Muxtariyyət ili”ndə Naxçıvanda daha 9 kənd və 8 xidmət mərkəzi istifadəyə verildi, regionun müxtəlif bölgələrində 19 tam orta məktəb binasında, 15 səhiyyə obyektində tikinti, yenidənqurma və əsaslı təmir işləri başa çatdırıldı. Naxçıvanın istehsal imkanları artdıqca ixrac potensialı da yüksəlib 409 milyon ABŞ dollarına çatdı. Ötən il daha 1725 nəfər naxçıvanlı gənc gələcəyin müəllimi, həkimi, iqtisadçısı, hüquqşünası, ekoloqu, turizmçisi, jurnalisti, mühəndisi, baytarı olmaq arzusu ilə ali məktəblərə qəbul olundu. 2014-cü ildə naxçıvanlıların mətbəxi daha ləziz, istirahəti daha bahalı, asudə vaxtları daha mənalı oldu.

*Bayram libasına bürünmüş Naxçıvanda həyat qaynayarkən naxçıvanlılar yeni ilə daha şən və xoşbəxt, daha qayğısız qədəm qoyurlar.*

**✍ Əli CABBAROV**

# Birliyimizin rəmzinə çevrilmiş bayram

M.S.Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasında 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Gününə həsr edilmiş konfrans keçirilib.

Konfransda kitabxananın direktoru, tarix üzrə fəlsəfə doktoru Aytəkin Qəhrəmanova bu əlamətdar günün tarixi əhəmiyyətindən, Azərbaycan xalqının milli həmrəyliyinin formalaşmasında ümummilli lider Heydər Əliyevin misilsiz xidmətlərindən danışıb. Qeyd edilib ki, dünya azərbaycanlılarının müstəqil dövlətimiz və vahid məqsəd ətrafında birləşməsi ideyasının müəllifi ulu öndərimiz Heydər Əliyev olub. Belə ki, 1990-1993-cü illərdə Naxçıvandan başlanan Heydər Əliyev xilaskarlıq missiyasının əsas qayəsini məhz xalqımızın vahid ideologiya ətrafında birləşməsi təşkil edirdi. 1991-ci il dekabrın 16-da ümummilli liderimizin rəhbərliyi ilə keçirilən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasında “31 Dekabr Dünya Azərbaycan Türklərinin Həmrəylik və Birlik Günü haqqında” Qərar qəbul edilib.

Qərara əsasən, 1991-ci ilin son günü – 31 dekabrda həmrəylik bayramı ilk dəfə muxtar respublikada kütləvi tədbirlərlə qeyd olunub. Dünya azərbaycanlılarının birlik və həmrəyliyi istiqamətində atılmış ilk addım olan bu bayram sonrakı dövrlərdə bu sahədə həyata keçirilən tədbirlərin daha da kütləvi xarakter almasında, xalqımızın vahid ideologiya ətrafında birləşməsində mühüm rol oynayıb.

Bildirilib ki, 23 il əvvəl ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə elan edilmiş milli-mənəvi birliyə çağırış günü soydaşlarımızın Azərbaycançılıq ideyası əsasında sıx birləşməsi, milli diasporun formalaşması və lobbi fəaliyyətinin inkişafı prosesinin başlanğıcıdır.

Böyük kitabxanaçı Vəsilə Cəfərova “Birliyimizin rəmzinə çevrilmiş bayram”, Komplektləşdirmə şöbəsinin müdiri Tamella Əsgərova “Ayrı-ayrı ölkələrdə yeni ilin qarşılanması” mövzusunda çıxış edərək XX əsrin sonlarında Azərbaycançılıq və milli həmrəylik ideyalarının geniş vüsət aldığını vurğulayıblar.

Qeyd olunub ki, bu gün dünyanın dörd bir tərəfində yaşayan, fəaliyyət göstərən soydaşlarımızın müstəqil Azərbaycan kimi vahid vətəni var. Çıxış edənlər Azərbaycan diasporunun milli maraqlarımızın, müstəqil Azərbaycan dövlətinin qətiyyətli siyasətinin müdafiəsi istiqamətində gördüyü işlərdən də danışıblar.

Konfransda Dünya Azərbaycanlılarının I, II, III qurultayları ilə bağlı slayd nümayiş etdirilib.

# Ahıllar evində tədbir

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təşkilatçılığı ilə 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə Şahbuz şəhərindəki Ahıllar evində tədbir keçirilib. Tədbirdə iştirak edən Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Cavid Səfərov, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova və Şahbuz Rayon İcra Hakimiyyətinin başçısı Nurəddin Quliyev çıxış edərək sakinləri bayram münasibətilə təbrik ediblər.

Çıxışlarda qeyd edilib ki, muxtar respublikamızın bütün sahələrində müşahidə olunan dinamik inkişaf və tərəqqi ahılların da sosial hüquqlarının təmin olunmasına geniş imkanlar açıb. Onların sosial müdafiəsinin gücləndirilməsi daim diqqət mərkəzində saxlanılır. Ahıllara göstərilən sosial xidmətlərin səviyyəsi yüksəlib, onların cəmiyyətə inteqrasiyaları istiqamətində həyata keçirilən tədbirlər intensiv xarakter alıb.

Bildirilib ki, Ahıllar evində sakinlərin rahat və fəal həyat tərzində yaşamaları üçün hər cür şərait yaradılıb.

Tədbirdə Şahbuz Rayon Mədəniyyət Evinin musiqi kollektivi konsert proqramı ilə çıxış edib.

Sonda Ahıllar evinin sakinlərinə bayram hədiyyələri təqdim olunub.

Ahıllar göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.

# Körpələr Evi və Ailələrə Dəstək Mərkəzində bayram şənliyi

***Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi Naxçıvan şəhərindəki Körpələr Evi və Ailələrə Dəstək Mərkəzində tədbir keçirmişdir.***



Tədbirdə Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Cavid Səfərov, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova çıxış edərək uşaqlara göstərilən dövlət qayğısından danışmışlar. Bildirilmişdir ki, muxtar respublikamızda bu kateqoriyadan olan uşaqlara, o cümlədən xüsusi qayğıya ehtiyacı olan uşaqlara həssaslıqla yanaşılır, onların hüquqlarının qorunması, asudə vaxtlarının səmərəli təşkili, cəmiyyətə inteqrasiya olunmaları diqqət mərkəzində saxlanılır. Bu qəbildən olan uşaqların ziyarət olunması, onlara hədiyyələrin verilməsi dövlətin uşaqlara diqqət və qayğısının bariz nümunəsidir.

Körpələr Evi və Ailələrə Dəstək Mərkəzinin baş həkimi Rəsmiyyə Xasayeva sağlamlıq imkanları məhdud uşaqlara göstərilən qayğıya görə dövlətimizə minnətdarlığını bildirmişdir.

Tədbirdə Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin rəqs qrupu müxtəlif rəqslər ifa etmiş, M.T.Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrının aktyorlarının ifasında tamaşalardan səhnəciklər göstərilmişdir. Bayram şənliyində sağlamlıq imkanları məhdud 14 uşağa hədiyyələr verilmişdir.

Həmin gün adıçəkilən qurumların əməkdaşları Ordubad şəhər M.Füzuli adına tam orta internat məktəbində də olmuş, hər iki valideynini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş uşaqlarla, həmçinin aztəminatlı ailələrin uşaqları ilə görüşmüşlər. Görüşdə bu qəbildən olan 17 uşağa bayram hədiyyələri verilmişdir.

**Xəbərlər şöbəsi**

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Muxtar Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 1